**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# VİRTUAL KİMLİK VƏ ONUN YENİ MEDİA DİSKURSUNDA LİNQVİSTİK İFADƏSİ

İxtisas: 5704.01 – Dil nəzəriyyəsi

Elm sahəsi: Filologiya

İddiaçı: **Nahidə Mahmud qızı İmanova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Dillər Universitetinin Ümumi dilçilik kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, dosent
**Leyla Mirhəsən qızı Cəfərova**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Bahar Cumay qızı Cəfərova**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Aqil Gülağa oğlu Cəfərov**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Dürdanə Mirzə qızı Rəhimova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
**Nadir Balaoğlan oğlu Məmmədli**

Dissertasiya şurasının elmi katibi: filologiya üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Yusif qızı Məmmədova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
**Gülsüm İsrafil qızı Hüseynova**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** İnternet dilinin öyrənilməsinə maraq getdikcə artmaqdadır ki, bu da virtual kimlik və onun yeni media diskursunda gizli və aşkar dil vasitələrilə fəaliyyətinin aşkarlanmasına yönəlmiş araşdırmaların səciyyəsində özünü göstərir. Linqvistik araşdırmalarda dil və internetin qarşılıqlı təsir istiqamətində paradiqm dəyişməsi baş verir, dilçilikdə müstəqil elm sahəsi kimi internet dilçiliyin kateqorial anlayışlar aparatı formalaşır, informasiyanın insan tərəfindən qəbul edilərək qavranılmasının aparıcı mövqeləri müəyyən edilir. Virtual kimlik və onun ifadəsi internet dilinə, kommunikasiya aktına meyilli hadisədir. Bu baxımdan heç də təsadüfi deyildir ki, B.H.Deyvis və C.P.Brüer internet dilini insanın koqnitiv qabiliyyətinin bir fokusuna müvafiq diskurs kvantı kimi nəzərdən keçirirlər. Bu dilçilərə görə, hər bir internet məlumatında adətən, yeni informasiyanın bir elementi yerləşir və köhnə/yeni informasiya qarşılaşması ünsiyyət iştirakçılarının qarşılıqlı əlaqəsi ilə göstərilir.

Virtual kimlik anlayışının əsas mahiyyəti yeni media diskursunun fərqli mühitində müşahidə edilir. Yeni media diskursunda virtual kimlik anlayışı kommunikasiya vahidi, danışıq nəticəsi kimi qəbul edilir.

İnternetin və dilin birgə kommunikasiyası dedikdə, internet mətnlərinin mənasının inteqrasiyası prosesinin yerinə yetirilməsində eksplist və implisit vasitələrin ifadəsi başa düşülür. Bunlar da dissertasiya işinin elmi yeniliyi kimi qəbul edilə bilər.

Media diskursunun araşdırılması lazımınca tədqiq edilməmişdir. İnternet diskursunun məzmunu və strukturu müxtəlif ünsiyyət-akt mətnlərində formalaşır. Virtual kimlik, onun media diskursunda eksplisit və implisit ifadəsi ayrıca tədqiqat işinin predmeti olmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** *Tədqiqatın obyekti* virtual kimlik və onun yeni media diskursunda dil vasitələri ilə ifadəsini araşdırmaqdan ibarətdir, *predmeti* isə onların internet mətnlərinin formalaşmasında iştirakının, rolunun sistemləşdirilməsi və müəyyənləşdirilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi fərqli dillərdə internet diskursunun kommunikativ-üslubi xüsusiyyətlərini təhlil etmək, o cümlədən onların struktur-semantik xüsusiyyətlərini aşkar etməkdən ibarətdir.

Tədqiqat işində qarşıya qoyulan əsas vəzifələr aşağıdakılardır:

- internet dilçiliyi ilə bağlı linqvistik mənbələrin icmalını vermək;
- internet dilçiliyində dil və internet problemlərini müəyyən etmək və onların səciyyəsini vermək;
- yeni media diskursunun semantik, praqmatik cəhətdən öyrənilməsinin linqvistik əhəmiyyətini təhlil etmək və onun fərqli ünsiyyət növlərinin formalaşmasında rolunu göstərmək;
- yeni media diskursunun ayrı-ayrı komponentlərinin rolunu aşkar etmək;
- internet ünsiyyətinin fərqli xüsusiyyətlərini, onlar arasında sərhədləri və funksional yükləri müəyyən etmək;
- media diskursunun eksplisit ifadəsini üzə çıxartmaq;
- media diskursunun implisit ifadəsini üzə çıxartmaq.

**Tədqiqat metodları.** Tədqiqat işinin aparılmasında istifadə edilən metodlar mövzu ilə sıx əlaqədar olaraq seçilir. Metodların düzgün seçilməsi yerinə yetirilən tədqiqat işinin obyektiv nəticəsini təmin edir. Tədqiqatımızın mövzusu ilə bağlı olaraq aşağıdakı metodlardan istifadə edilmişdir:

1. Müşahidə metodu;
2. Linqvistik təhlil metodu.

Bundan əlavə, dissertasiya işində biz əsasən diskursiv-kontekstual təhlil metodundan istifadə etmişik və funksional yanaşmaya üstünlük vermişik.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- internet dilçiliyi ilə bağlı linqvistik mənbələr araşdırılmalı və "internet dilçiliyi" termininin dil və internet birliyini ehtiva etməsi təsdiqini tapmalıdır. Dilin və ünsiyyətin birgə fəaliyyətinin müşahidə olunduğu dil və ünsiyyət birliyi internet dilçiliyində tədqiq edilməlidir.

-internet dilçiliyinin texnologiya mühitində insan dilinin manifestasiyasını tədqiq edən düzgün sahələrdən biri olması əsaslandırılmalıdır.

-internet dilçiliyi bütövlükdə insanların davranışı, ünsiyyəti ilə müşahidə edilən bir prosesdir.

-internet dilçiliyi dilin internetdə öyrənilməsi, yaxud internet dilinin öyrənilməsidir. Bu dilçilik sintaksis, internet morfologiyası, fonologiyası, qrafalogiyası, multimediası, semiotikası, semantikası, diskursu əhatə edir.

-internet dili internet ünsiyyəti və onun insanlara təsiri arasında bir balans yarada bilir.

-internetin özünəməxsus ünsiyyət dili var: mesaj dili, tvitter dili, e-poçtların dili, feysbook ünsiyyət dili, emojilərin dili və s. Bu vasitələrin hər birinin öz yazı və işlədilmə formaları vardır.

-internet media diskursları arasında yayılmış ən müasir kütləvi informasiya vasitəsidir.

-yeni media diskursunun semantik, praqmatik cəhətdən öyrənilməsinin linqvistik əhəmiyyəti internet mətnlərinin mənalarını açır və onların fərqli ünsiyyət növlərini formalaşdırır.

-internet dili fərqli internet mətnlərində geniş şəkildə işlədilir.

-yeni media diskursu rəqəmsal dünyada ünsiyyətin növlərindən biri kimi müəyyən edilir və onun qrup korrelyasiyası, publisistika, fərdi orientasiya, kütləvi orientasiya kimi komponentləri vardır.

-fərqli dillərdə mesaj mətnlərinin, e-poçtların, emojilərin özlərinəməxsus ünsiyyət dilləri vardır.

-internet çoxlaylı semiotik sistemdir.

**Tədqiqatın elmi yeniliyi.** Fərqli dillərdə virtual kimliyin və onun yeni media diskursunda eksplisit və implisit ifadə yollarının araşdırılması tədqiqatın elmi yeniliyi hesab edilə bilər. Virtual kimlik və onun media diskursunda ifadəsi ümumi dilçilik üçün yeni mövzudur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** İşin nəzəri əhəmiyyəti internetin və dilin birliyinin ifadəsində mətnlərin, diskursların semantikləşmə mexanizminin aydınlaşdırılmasında rolunun və dəqiq ünsiyyət modellərinin reallaşmasına təsirinin öyrənilməsilə şərtlənir. İşin nəzəri əhəmiyyəti a) fərqli internet

ünsiyyət sisteminin ümumi və səciyyəvi xüsusiyyətlərini üzə çıxartmaq, b) mədəniyyətlərarası ünsiyyətdə internet yazışmalarının çoxcəhətli implisit və eksplisit vasitələrin linqvistik şərhini işləyib hazırlamaqdan ibarətdir.

Tədqiqatın nəticələrindən internet dilçiliyi ilə bağlı mühazirələrdə, praktik kurslarda, eləcə də bu mövzu ilə bağlı yeni tədris vasitələrinin hazırlanmasında istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin nəticələri müəllifin çap olunmuş 26 elmi məqalə və konfrans tezislərində geniş şərh olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Hind-Avropa dilləri şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın Giriş hissəsi 4 səhifə, I fəsil 20 səhifə, II fəsil 53 səhifə, III fəsil 39 səhifə, nəticə hissəsi 4 səhifə olmaqla, işarə ilə ümumi həcmi 212551 simvoldur.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində mövzunun aktuallığı, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekt və predmeti, dil materialı və tədqiqat işində istifadə olunan metodlar şərh olunur.

Tədqiqat işinin **"İnternetin müasir dilçilikdə yeri"** adlanan **I fəslində** internet dilçiliyinin yaranması və hansı səbəbdən yaranması məsələləri araşdırılıb. Hazırda internet dilçiliyi tətbiqi dilçiliyin mühüm bir sahəsi hesab edilir.[1] M. Mahmudov yazır: *"«İnternet dilçiliyi» terminoloji birləşməsi, «kompüter dilçiliyi», «riyazi dilçilik», «struktur dilçilik», «hesablama dilçiliyi», «statistik*

[1] Mahmudov, M.Ə. Kompüter dilçiliyi. / M.Ə.Mahmudov. – Bakı: Elm və Təhsil, – 2013. – s.12.

*dilçilik», «kibernetik dilçilik», «struktur-tətbiqi dilçilik», «mühəndis dilçiliyi», «korpus dilçiliyi», «kvantitativ linqvistika» və s. anlayışların hər birini məna baxımdan ehtiva edir və dilçiliyin riyaziyyat, statistika, kibernetika elmləri kompleksi ilə qovuşma nöqtəsində yaranan yeni sahəsini əhatə edir".*[2] *"İnternet dilçiliyini tətbiqi dilçiliyin başqa sahələrindən fərqləndirən əsas cəhət dil materialının kompüterlərdə işlənməsidir. Müstəqil bir elm sahəsi kimi formalaşan kompüter dilçiliyində bir çox yeni anlayış və terminlərdən istifadə olunur. Həmin termin və anlayışların əksəriyyəti süni intellekt sistemlərində və koqnitiv dilçilikdə işlənir"*[3].

İnternet ünsiyyət vasitələri insanın koqnitiv-virtual qabiliyyətinin nəticəsində reallaşır və həyata keçirilir. F.Y.Veysəlli yazır: *"Koqnitiv fəaliyyət dil vasitəsilə reallaşan mental prosesdir"*[4] və fərqli insan ünsiyyətinin öyrənilməsində böyük rola malikdir.

E.S.Kubryakovanın fikrincə, *"kommunikativ aktlar "bizim daxilimizdəki ünsiyyəti reallaşdırır"*. Bu tərif dilin koqnitiv və diskursiv funksiyalarının əlaqəli şəkildə öyrənməsini irəli sürür. Deməli, dilin və dil hadisələrinin koqnisiya və kommunikasiyanın kəsişməsində öyrənilməsi ən adekvat araşdırılma üsuludur.[5] İngilis dilçisi N.Feyrklau dünyada müasir dil situasiyasını ünsiyyət dilinin "texnolojiləşməsi" kimi xarakterizə edir ki, bunu da, ilk növbədə, internetin cəmiyyətin həyatının bütün sahələrində intensiv istifadəsinə aid etmək olar.[6] Bu gün internet cəmiyyətin mədəniyyətinin ayrılmaz hissəsidir, sivilizasiyanın inkişafının əsas elementlərindən biridir. Onun əsas xüsusiyyəti ondan ibarətdir ki, o, yalnız texniki ixtira deyil, həm də sosial hadisədir.

İnternetin dili özündə yazılı və şifahi nitqin əlamətlərini birləşdirir, habelə kompüter ünsiyyəti ilə şərtlənmiş xüsusi cəhətlərə

---

[2] Yenə orada, s.46.

[3] Yenə orada, s. 27.

[4] Veysəlli, F.Y. Diskurs təhlilinə giriş. / F.Y.Veysəlli. – Bakı: Təhsil NPM, – 2010. – s. 30.

[5] Кубрякова, Е.С. Когнитивные аспекты в исследовании семантики слова // Семантика языковых единиц: тезисы докладов VI Международной науч. конф. Т. 1. – Москва: Наука, – 1998. – с. 47.

[6] Fairclogh, N.L. Linguistics and intertextual Analysis Discours Analysis // – London: Macmillan, Discours and Society. – 1990. – p.193.

də malikdir, ona görə də internetin dili ünsiyyətin yeni növü, diskursun yeni növüdür. Buna görə də bəzən internetin dilini "şifahi-yazılı diskurs" adlandırırlar. İnternetdə kommunikasiyanın mövcudluğunun əsas forması yazılı formadır, lakin yazının qaydaları burada hər yerdə pozulur, çünki ünsiyyət əsasən qeyri-formal xarakter daşıyır. İnternet dilinin mahiyyətini xarakterizə edən D.Kristal orijinal formula təklif edir: *"... şifahi nitq forması + yazılı nitq forması + kompüterlə əlaqəli əlamətlər"*.[7] Bu ünsiyyət vasitəsi yazı və danışığın hibridləşməsindən də xeyli çoxdur.

L.V.Kompansevanın qənaətinə görə, bəzi amillərə rəğmən, internet dilçiliyinin yeni bilik sahəsi kimi formalaşdığını söyləmək olar:

a) internet-kommunikasiyanın bütün səviyyələrinin tipoloji xüsusiyyətləri müəyyən edilmişdir (funksional-sistem, diskursiv, konseptual, sosioloji, linqvogenderoloji və s.);

b) internet dilçiliyində formalaşmaqda olan paradiqm onun terminoloji sistemində qeyd alınmışdır ki, bu da onun müstəsna dərəcədə həmin sahəyə aid olan anlayışlar aparatının olmasında öz təsdiqini tapır. Məsələn, internet-kommunikasiya, virtual dil şəxsiyyəti, virtual diskurs, hiperdiskurs və s.[8]

İnternetin dilə və ünsiyyətə təsirini bəzi dilçilər İ.Qutenberqin ilk çap dəzgahını ixtira etməsinə bənzədirlər.[9] İngilisdilli elmi paradiqmdə yeni elektron dili təyin etmək üçün müxtəlif terminlərdən istifadə edilir: "*e-language, netlingo, e-talk, geekspeak, netspeak, weblish",*[10] onun fəaliyyətinin kommunikativ məkanının isə kompüter vasitəsilə kommunikasiya adlandırırlar.

Qeyd edilən terminin geniş yayılması 90-cı illərdə "Journal of Computer-Mediated Communication" jurnalının nəşri ilə

---

[7] Crystal, D. Internet Linguistics. / D.Crystal. – New York: Routledge, – 2011. – p.90.

[8] Компанцева, Д.Ф. Интернет-лингвистика: когнитивно-прагматический и лингвокультурологический подходы: монография. / Д.Ф.Компанцева. – Луганск: Знание, – 2008. –с. 405-407.

[9] Crystal, D. Internet Linguistics. / D.Crystal. – New York: Routledge, – 2011. – p.79.

[10] Crystal, D. Language and the Internet. 2nd edition. / D.Crystal. – Cambridge: Cambridge University Press, – 2006. – p.122.

başlanmışdır. Dilçini ilk növbədə dil işarələr sistemi kimi, daha dəqiqi, qeyri-verbal kommunikasiya dili deyil, dilin şifahi və yazılı formaları maraqlandırır. Yeni mobil telefonların, smartfonların, "Apple" şirkətinin məhsulları, elektron audio kitabların meydana gəlməsi internetdə ünsiyyətin yalnız kompüter vasitəsilə aparılması assosiasiyasını uzaqlaşdırmış oldu, çünki internet bu qurğunun hüdudlarından kənara çıxmış oldu. Bunun nəticəsi kimi "elektron kommunikasiya" və "rəqəmsal kommunikasiya" terminləri meydana gəldi. Bu terminlərdən hansının işləklik qazanacağını söyləmək tez olsa da, linqvistik baxımdan təbii dilin fəaliyyətinin bütün təzahürlərini elektron mühitdə – "internet-linqvistika" termini bu istiqamətin adlandırılmasında ən uyğunu hesab etmək olar.

Göründüyü kimi, bu termin linqvistik baxımdan daha vacibdir, çünki o, kommunikasiya prosesinin texniki, sosioloji, psixoloji tərəflərinə deyil, linqvistik aspektinə istinad edir. Bu baxımdan D.Kristalın mövqeyi daha maraqlıdır. Onun təbirincə, kommunikasiyanın dilçilik istisna olmqla bütün tərəfləri ilə məşğul olan istiqamətini internet-semiotika adlandırmaq mümkündür.[11]

İnternetin müstəsna dərəcədə vacibliyi, D.Kristalın da qeyd etdiyi kimi, sözün özünün yazılışında əks olunur: *"İnternet sözü müasir texnologiya terminləri arasında baş hərflə yazılanlardan birincisidir. Məsələn, "Çap", "Nəşriyyat", "Veriliş", "Radio", "Televizor" kimi sözlər adətən böyük hərflə yazılmadığı halda, məqsəddən asılı olaraq "İnternet" və "Net" böyük hərflə yazıla bilər".*[12] Bizim mövqeyimiz isə belədir ki, internet dilçiliyi təşəkkül və inkişaf mərhələsində olduğundan, bu gün internet dilçiliyi sahəsində internet-sintaksis, internet-semantika, internet-morfologiya, internet diskursun təhlili və s. istiqamətləri fərqləndirmək olar. Aparılan tədqiqatları nəzərə alsaq, onda bu istiqaməti qonşu elm sahələrinin terminologiyasına istinad edərək

---

[11] Crystal, D. The scope of Internet linguistics. Paper given online to the American Association for the advancement of Science meeting. / D.Crystal. – Britain: URL, – 2005. – p.2. URL: http://allthingslinguistic.com/post/9447199392

[12] Crystal, D. Language and the Internet. 2nd edition. / D.Crystal. – Cambridge: Cambridge University Press, – 2006. – p.3

özünün terminologiyasını yaratmaqda olan inteqrativ istiqamət kimi dəyərləndirmək olar.

D.Kristal bu sahəni "tətbiqi internet dilçiliyi" adlandırmağı təklif edir. Fikrimizcə, internet dilçiliyi təbii dilin bütün səviyyələrində internetin təsiri altında baş verən bütün dəyişmələri qeyd etməyə yönəliklidir. İnternet dilçiliyi sahəsində çalışan tədqiqatçının rastlaşdığı ilk problem, şəbəkədə qorunub saxlanılan və bütövlükdə bütün dünya kitabxanalarında saxlanılan mətnlərin həcmini aşan mətn informasiyasıdır. Bu mətn informasiyalarının həcmi daima artmaqdadır, habelə onun informasiya zənginliyi də şəbəkəyə yeni ölkə və subkulturların qoşulması ilə artmaqda davam edir.

İnternet mətnlərdə iki əsas kateqoriya müşahidə edilir: ünsiyyət və uyğunluq.[13] Ünsiyyətin qurulması və düzgün aparılması internet mətnləri üçün vacibdir. Birinci kateqoriyanın reallaşması sistemə, funksiyaya və sistem-dil kateqoriyalarına əsaslanır. İkincisi, mətnlərin təşkili mövzuya uyğunluğa əsaslanmalıdır, məsələn, üz ifadələri, emojilər, durğu işarələri düzgün seçilməlidir. Xüsusilə üz ifadələrinin seçimində diqqətli olmaq lazımdır. Vaxtilə Ç.Darvin insanlarda və heyvanlarda üz ifadələrinin fərqləndirilməsini öyrənmiş və bu qənaətə gəlmişdir ki, bəzi situasiyalarda insanlarda və heyvanlarda üz ifadələri oxşar ola bilir.[14] Məsələn, qorxu anında, yaxud gözlənilmədən qarşılaşdıqları vəziyyətlərdə insanlar və heyvanlar eyni ifadələri sərgiləyə bilir. Qorxu anında insanda və heyvanda böyümüş gözlər, üzdə və gözlərdə yaranan dəhşət dolu ifadə və s. müşahidə oluna bilər. İnternet mətnlərində bu ifadələrin simvollar, emojilər, yaxud durğu işarələri ilə əks olunması zamanı seçilən fiqurların situasiyaya uyğun olmasına fikir verməк lazımdır. Artıq heyvan fiqurları vasitəsilə ifadə olunan insan sifət ifadələri də işlədilməyə başlanmışdır. Bu sifət ifadələrinin internet mətnlərində işlədilməsi mətnlərin informativlik yükünü artırır. İnternet mətnlərində informativlik, koheziya, inteqrasiya, aktual üzvlənmə

---

[13] Sperber D. Relevance: communication and cognition. / D.Sperber, D.Wilson. – Oxford: Blackwell, – 1986; – 1995. – p.88

[14] Charles, D. The Expression of the Emotions in Man and Animals. / D.Charles. – Chicago: University of Chicago Press, – 1872. – p.74

nəzərə alınır. Bu kateqoriyalar digər mətn tiplərinə də aid olur. İnternet mətnlərində kateqoriyalar ayrılıqda deyil, bərabər fəaliyyət göstərir və onların kateqoriyaları, təbii ki, mətnin strukturundan asılı olaraq dəyişkən ola bilər. A.N.Moraxovski mətn kateqoriyalarının çoxluğunu onların iyerarxik nizamsızlığının, məcburi və fakültətiv əlamətlərinin bir səviyyədə götürülməsi ilə əlaqələndirir. O, mətn əlamətləri ilə mətn kateqoriyalarının keyfiyyətcə fərqləndiyini göstərir.[15]

İnternet dilçiliyi təşəkkül və inkişaf mərhələsində olduğundan, bu gün internet dilçiliyi sahəsində internet-sintaksis, internet-semantika, internet-morfologiya, internet diskursun təhlili və s. istiqamətləri fərqləndirmək olur. Aparılan tədqiqatları nəzərə alsaq, onda bu istiqaməti qonşu elm sahələrinin terminologiyasına istinad edərək özünün terminologiyasını yaratmaqda olan inteqrativ istiqamət kimi dəyərləndirmək olar.

Dilçilik baxımından internetin inkişafını iki geniş mərhələdə izləmək mümkündür: 1) fərdi nitq cəmiyyəti daxilində işlədilən dilin təbiətinə təsiri olan istiqamət; 2) fərqli üslubları bir araya gətirən və onların birliyində müşahidə olunan istiqamət.[16] Birinci halda dil artıq mövcud olan vizual modallıqda izlənilir və bu da linqvistik implikasiyalar yaradır. Məsələn, internet telefonunda (ingilis dilində /interphone/) olduğu kimi. Məlum olur ki, internet telefonunda mikrofon və səsləndirmə birlikdə telefonun funksiyasını yerinə yetirir. Elə kompüter texnologiyaları var ki, onların dilə təsiri qəbul edilmir. Məsələn, danışığı olduğu kimi digər dilə tərcümə edən cihazlar mövcuddur. Bu cür cihazların tərcümə dilində qüsurları olduğu artıq sübut olunub. D.Adamın "Beybl balığı" adlı yaratdığı aparat da buna bənzər hərəkəti icra edir. Aparat üz-üzə söhbət effekti yaratmaq üçün hazırlanmışdır, lakin uğurlu alındığını demək olmaz.[17]

---

[15] Мораховский, А.Н. К проблеме текста и его категорий // – Калининград: КГПИИЯ, Текст и его категориальный признаки, – 1980. – с.3

[16] Yenə orada, s.226.

[17] Adams, L., Churchill E., et al. Distributed research teams: meeting asynchronously in virtual space // – England: New press, Journal of Computer-mediated communication, – 1999. No 4 (4), – p.6-35.

Berners-Li T. internetin əhəmiyyətini vurğulamaq üçün belə bir sitat gətirir: *"İnsanlar yeni texnologiyaya elə aludə olublar ki, sanki həmin texnologiyadan doğulublar. İnternetə bağlılıqla onlar öz həyatları barədə belə internetdən məlumat alır, həm iqtisadi, həm siyası, mədəni və s. sahələrdə. İnsanlar səslərini dünyaya çatdırmaq üçün də internetdən isifadə edirlər".*[18] Berners-Li T. daha irəli gedərək yazır: *"Mən iddia edirəm ki, internet texniki cihaz olaraq yaradılmaqdan daha çox sosial vasitə kimi qəbul edilməlidir".*[19] D.Kristal bununla bağlı yazır: *"Əgər internet inqilabdırsa, o halda o linqvistik inqilab hesab edilməlidir".*[20]

Tədqiqatın **II fəsli "Yeni media" diskursunun komponentləri"** adlanır. Müasir dövrdə informasiyanın ötürülməsi vasitələrinin artdığı müşahidə olunur. İnformasiya vasitələrinin çoxluğu onların tətbiq olunduğu dilin işlədilməsi baxımından da maraq doğurur. Hazırda informasiyanın ötürülməsi vasitələri kimi tanınan "radio dili", "televiziya dili", "qəzet dili", "kitab dili" və s. terminlərini çox eşidirik. Bu cür terminlərin işlədilməsi günümüzün tələbindən doğur. Bu terminlər arasında son zamanlarda "yeni media diskursu" termini də işlənməyə başlamışdır. Media diskursu kütləvi informasiya vasitələrinə aid olan danışıqları əhatə edir.[21]

Son illərdə *televiziya dili, radio dili* kimi terminləri özündə birləşdirən kütləvi informasiya vasitələrinin dili geniş şəkildə tədqiq olunmaqdadır. Belə terminlər arasına "yeni media" termini də daxil olmuşdur. Bu terminin diskursun bir növü kimi öyrənilməsi də dilçilərin diqqətini cəlb etməkdədir. Yeni media termini artıq geniş inkişaf etməkdə olan texnologiya və kommunikasiya mediasını əhatə edir. 1980-ci illərdən texnologiyada müşahidə olunan sürətli inkişaf media ünsiyyətinə aparır. C.Cevit yazır: *"Köhnə texnologiya yeni*

---

[18] Berners-Lee, T. Weaving the Web. / T.Berners-Lee. – London: Orion Business Books, – 1999. – p. 11.

[19] Yenə orada, s.45.

[20] Crystal, D. Language and the Internet. 2nd edition. / D.Crystal. – Cambridge: Cambridge University Press, – 2006. – p.12.

[21] Казак, М.Ю. Медиатекст как открытый тип текста // – Флинта: Наука, Язык современной публицистики.– 2007. – с.7-12.

*texnologiyanı sıxışdırmağa başlayır və bu da yeni media diskursunun tətbiqini vacib edir".*[22]

"Yeni media" termini həmçinin texno-kültürəl praktikanı da əhatə edə bilər. Bu praktika bəzi kompüter əməliyyatları müşahidə olunan sistemi nəzərdə tutur. M.Lister yazır: *"Yeni mediya termini təmiz texnika və formal "diqital", yaxud elektronik media anlamını ifadə etmir. Bu tək, aydın təsviri olmayan və mübahisəli keyfiyyəti olan "interaktiv media", yaxud "kompüter-vasitəsilə olan ünsiyyəti" ifadə edir".*[23] Bu zaman "yeni media" termini öz spesifikliyin büruzə verir. Termin müasir kommunikativ praktikada fundamental dəyişiklikləri əks etdirmək üçün səmərəli hesab oluna bilər. Yeni media mətnləri və diskursları kompüter oyunlarını, mobil telefonlardakı mətn ismarışlarını, interaktiv televiziya oyunlarını, bir sözlə, ekran-əsaslı olan texnologiyaları ehtiva edir. Buraya gənclərin, yeniyetmələrin məşğul olduqları bir çox kompüter istifadəsini əlavə edə bilərik.

Fəal insanlar arasında dil praqmatik ədatlarla ifadə olun bilir. Praqmatik ədata aid digər nümunə. Məsələn, "slash" termini. İngilis dilində bu termininin mənası: "to cut with a sharp blade using a quick, strong movement". Azərbaycan dilində "kəsmək, doğramaq" mənasını verir. İndi isə cümlədə mənasına baxaq: /We're going to have a party-slash-networking session// (Biz şəbəkə bölməsi yaratmağa hazırlaşırıq). Lakin "slash" termini "txting"də başqa anlamda işlədilir. Bu termin "texting" mesajlarda məclisi, formanı, mövzunu və s. dəyişmək anlamını əks etdirir. Məsələn:

Sally: "So, I need to find people to chill with".

Jake: "Haha" – you could write a dissertation about "Haha" too, but we don't have time for that — "Haha so you're going by yourself? Why?"

Sally: "For this summer program at NYU."

---

[22] Jewitt, C. The move from page to screen: the multimodal reshaping of school English. // – London: Longman, Visual Communication, – 2002. No 1 (2), – p.171-195.

[23] Lister, M. New Media: A Critical Introduction. / M.Lister, J.Dovey, S.Giddings [et all.] – London: Routledge, – 2003. – p. 35.

Jake: “Haha. Slash I'm watching this video with suns players trying to shoot with one eye”.[24]

Azərbaycan dilində tərcüməsi:

Səli: “Beləliklə, mənim yaxşı yola gedəcəyim insanlar tapmağım lazımdır”.

Ceyk: “Haha” – sən “haha”haqqında dissertasiya da yaza bilərdin. Lakin bizim buna vaxtımız yoxdur. “Haha” yəni sən tək gedirsən? Nə üçün?”

Səli: “Bu yay proqramı üçün Nyu York Universitetində tək qalacağam”.

Ceyk: “Haha. Zibil. Mən bu videonu (mənzərəni) tək zərbə ilə vurmağa hazırlaşan günəş oyunçularını izləyirəm”.

Gördüyümüz kimi, mövzu dəyişikliyi zamanı /slash/ termini “zibil” (söyüş) mənasında işlədilib. Bu da danışıqda və yazıda işlədilən media diskurs markeri hesab olunur.

“Txting” mesajlaşma gənclərin şüurla deyil, sadəcə olaraq dövrün sürətilə ayaqlaşma və balansı saxlama formaları hesab olunur. Bu sanki onların linqvistik çıxışları kimi səslənir. Bəzi dilçillər bunu “yeni dil” belə adlandırmaqdan çəkinmirlər.[25]

İndi isə özümüz bir kontekst quraq:

“That’s a pity! Maybe cld meet for few hrs tomo?”

Azərbaycan dilində tərcüməsi:

“Təəssüf! Ola bilsin ki, sabah bir neçə saat üçün görüşə bilərik”.

Bu nümunədə “cld” (could) and “hrs” (hours) və “tomo” (tomorrow) qısaldılmaları gündəlik danışıqda işlədilən diskurs markerləri kimi işlədilib.

Digər nümunə:

“thank you for *comin* me too i had been invited out but said no *coz u* were *cumin* and *u* said we would do something on the sat now i have nothing to do all weekend i am a billy no mates i really hate being single” (qadının 18 yaşlı bacısına yazdığı mesaj).[26]

---

[24] http://www.textingmessages.com

[25] Street, B. The implications of the new literacy studies for education. // – New York: Harcourt, English in Education, – 1997. No 31 (3), – p.4-59

[26] http://www.textingmessages.com

Azərbaycan dilində tərcüməsi:

Məni də dəvət etdiyin üçün sağ ol. Mən gəzintiyə dəvət olunmuşdum, lakin qəbul etmədim, çünki sən gəlirdin və dedin ki, oturub söhbət edərik. Mənim də bütün həftə görəcəyim bir iş yoxdur və yoldaşa ehtiyacım var idi. Mən həqiqətən tək qalmağa nifrət edirəm.

Göründüyü kimi, bu mesaj mətnində xeyli sayda qısaltmalardan istifadə edilib. Mesaj mətnində 18 yaşlı gəncin narahat və hirsli tonu hiss olunur. O bunu bir neçə dəfə hərfləri təkrarlamaqla əks etdirir. Mesajda böyük hərflə yazma hallarına rast gəlinmir. Həmçinin "u" homofonu da çox işlədilmişdir ki, bu da danışanın fikrini mesajın redaktəsinə deyil, danışığına yönəltdiyi anlamına gəlir. Mesajdan danışanın səmimiyyəti də hiss olunur. Təbii ki, mesajlarda sintaksisə də diqqət verməк lazımdır. Bu mesajda cümlələr ardıcıl və düzgün sıralanma ilə düzülmüşdür. Mesajda bütün məcaz yazılarında olduğu kimi, hiss-həyəcanın çoxluğu hiss olunur.

Digər nümunə:

-Hey fella. Did you *hav a gd* day *wiv* the kids? Was a nice day to go to woods. *Giv* us a ring sometime ☺). (30 yaşlı qadının yazdığı mesaj).[27]

Azərbaycan dilində tərcüməsi:

"Ey cavan oğlan. Sən uşaqlarla yaxşı vaxt keçirtdin? Meşəyə getmək üçün yaxşı gün idi, həə? Arada imkan olanda bizə zəng et ☺".

Bu nümunədə bilərəkdən qeyri-balans yaratmaq xatirinə sözlərin qısaldılmış forması işlədilir. Mesaj açıqca formasında yazılmışdır. "Fella" ədatı və sonda qoyulan öpüş emojisi iştirakçılar arasında səmimiyyəti əks etdirir. Cümlədə ellipsis "Was a nice day to go to woods" işlədilmişdi. /It/ əvəzliyi atılmış və /woods/ sözünün əvvəlində /the/ artiklı işlədilməmişdir. Bu da mesajın danışıq kimi deyil, daha çox yazılı mətn kimi görünməsinə səbəb olur.

Yeni media diskursu digər kommunikasiya sahələrində işlədilən diskurs və mətn növlərindən fərqlənən və yeni kütləvi

---

[27] http://www.textingmessages.com

informasiya vasitələrindən biri kimi nəzərdə tutulur. Yeni media diskursunun mənası onu qəbul edəndən çox asılı olur. Qəbul edənin fon bilikləri gizli və aşkar şəkildə ifadə olunan məlumatı düzgün qəbul etməsinə səbəb olur. Yeni media diskursunu qəbul edən şəxs məlumatı fərqli şəkildə dərk edə bilər. Bu onun yaşından, təcrübəsindən, dil vasitələrindən istifadə bacarığından, psixoloji vəziyyətindən və digər amillərdən asılı olaraq yarana bilər.

İnsanın mental fəaliyyəti sağlam doğulmuş, yaxud doğulmamış insanlarda belə fərqli şəkildə müşahidə olunur. Elmdə "idiot savants" adlı termin mövcuddur. Bəzi adamlar, yəni yüksək intellekti ilə fərqlənən adamlar bu cür adlandırılır. Bu o səbəbdəndir ki, onlar hər hansı bir sahədə yüksək istedadları ilə fərqlənsələr belə, digər sahələrdə yüksək qabiliyyət göstərib parlaya bilmirlər. Tarixdə belə misallar çoxdur. Uşaqlar üzərində aparılan tədqiqatlara əsasən belə müəyyən olunur ki, bəzi uşaqlarda düzgün ünsiyyət qurmaq qabiliyyəti vardır.

İnsan hansı fəaliyyəti yerinə yetirir yetirsin, hər bir hərəkətin icrası ünsiyyət vasitəsilə yerinə yetirilir. Ünsiyyət bütün fəaliyyətlərin əsasını təşkil edir. Təbii ki, canlılar hamısı ünsiyyət qurmaq bacarığına malikdir. İnsanların ünsiyyəti digər canlılarınkından fərqlənir. İnsan ünsiyyəti verbal, qeyri-verbal, yaxud linqvistik və qeyri-linqvistik əlamətlərlə müşahidə edilir. Hazırda müasir dövr insanlarının fəaliyyətinin əsasını təşkil edən internet vasitəsilə yerinə yetirilən ünsiyyət daha real hesab edilir. İnternet ünsiyyətinin əsasını təşkil edən vasitələrdən biri mesaj mətnlərinin yazılması və ötürülməsidir.[28] İnsanlar vaxtlarına qənaət etdiklərindən mesaj mətnlərini yazarkən sözlərin, yaxud hərflərin qısaldılma formalarına üstünlük verirlər. Bəzən isə daha asan vasitə kimi, hərflərin yerinə, yaxud iki eyni hərfi təkrar etməmək anlamında rəqəmlərdən istifadə hallarına rast gəlirik.

Qısa yazılan mesaj mətnləri ingilis dili ilə yanaşı, artıq digər dillərdə də geniş yayılmaqdadır. Doğrudur, araşdırmalar göstərir ki, digər dillərdə ingilis dilindən alınmış qısa hərf, hərf birləşməsi,

[28] Johansson, S. Times change, and so do corpora. / In Aijmer and Altenberg (eds.)/ S.Johansson. – Oxford: Oxford University Press, – 1991. – p.305

rəqəm və s.-in işlədilməsi hallarına geniş şəkildə təsadüf olunur, lakin buna baxmayaraq, artıq digər, məsələn, çin, yapon, ispan, fransız, alman, portuqal və s. dillərdə mesajlaşma mətnlərinin müasir, yəni qısa və daha mənalı formalarına rast gəlinir. Xatırlatmaq istərdik ki, bu dillərdən alınma qısaldılmış mesaj sözlərini həmin dillərin mesaj mətnlərinə aid olan internet saytlarından (ədəbiyyat siyahısında bütün mənbələr göstərilmişdir – N.İmanova) və müasir dilçilik kitablarından götürüb təhlil və müqayisə etmişik.

Bəzi dillərdə mesaj mətnlərinin müasir yazılma formalarını nəzərdən keçirək. Çex dilində /č, ě, š, ž/ hərfləri mövcuddur. Müşahidələr göstərir ki, bu diakritiklər mesaj mətnlərində həmişə buraxılır. Adətən onlar /c, e, s, z/ şəklində yazılır. Kontekst elə qurulur ki, qarışıqlıq yaranmasın. Eyni oxşar halı portuqal dilində də müşahidə etmək olar. Məsələn, bu dildə /entáo/ (then – sonra, onda) sözündəki /*áo*/ “m” hərfi ilə əvəz olunur, yəni /entaum/. Və /náo/ sözü /naum/ (not – inkar ədatı) sözü ilə əvəz olunur.

D.Kristal yazır ki, dünyada mövcud olan dillərin çoxunu araşdırsaq bu qənaətə gələrik ki, mesajlaşmalarda işlədilən dil sistemi texnologiyanı qəbul etməsi baxımından fərqli yollarla ifadə olunur. Maraqlıdır ki, qeyri-roman yazı sistemindən istifadə edən dillərin istifadəçiləri öz dil fərdiliklərini göstərmək üçün klaviaturadan necə istifadə edirlər. Məsələn, həbəş dilində bu necə olar. Bu dilin yazı sistemində 345 simvol vardır. Ərəb mətnlərində isə Roman əlifbasında işlədilməyən hərfləri əvəz etmək üçün rəqəmlərdən istifadə olunur. Məsələn, 2 rəqəmi ərəb dilində xirtdək samitlərini göstərmək üçün istifadə edilir. Ərəb dilində /insha’llah/ (“Allah izin versə”) sözü /insha2llah/ kimi yazılır. Bəzi hallarda isə bu söz /*isa*/ şəklində qısaldılır.[29]

Dünya dillərində elə sözlərə rast gəlmək olur ki, onlar uzun olmaları ilə fərqlənir. Bu variantlar əsasən aqqlütinativ dillərdə müşahidə olunur, belə ki, bu dillər zəngin şəkilçiləri ilə tanınır.[30] Gündəlik istifadədə ingilis dilində işlədilən sözlər içərisində

---

[29] Crystal, D. Txtng. / D.Crystal. – Oxford: Oxford University Press, – 2008. –p124
[30] Erica Yuan-Ting, H. Mobile phone keypad design for last Chinese text entry by phonetic spelling”. // – Cambridge: Cambridge University Press, Behaviour and Information Technology, –2007. No 26 (2), – p.4

uzunluğu ilə müşahidə olunanlar o qədər də çoxluq təşkil etmir. Lakin Hindistanda danışılan dillərdən biri olan Malayalam dilində işlədilən hər on sözdən biri uzun söz hesab olunur. İnuit (Eskimo) dilində isə hər on dörd sözdən birinin uzun olması müşahidə olunur. Bu dillərin hər birində yüzlərlə şəkilçilər vardır. Mesajlaşmalar zamanı qısaltmalarda, məsələn, saitlər buraxılması mümkün hesab olunur, amma bu da çıxış yolu hesab olunmur. Bir çox sözlərin ötürülməsi mənanın itməsinə səbəb ola bilər. Mesajlaşma zamanı qısaltmalardan istifadəyə meyilin artması artıq bir çox dillərdə müşahidə olunur. Mesaj yazma mədəniyyəti xüsusi dillə inkişaf etdiyindən yeni abbreviatur dəyişiklikləri yaranmağa başlayır. Məsələn, Taqaloq (Filippin) dilində təkrarlanan hecalar feil formasını yaratmaq üçün işlədilir.

Bir çox dildə qısaldılmalar ingilis dilində işlədildiyi kimi işlədilir. /Lol/ "yüksəkdən gülmək" (laughing out loud) qısaldılmasına bir çox dillərin mesajlaşma yazılarında rast gəlmək olur. Məsələn, Azərbaycan dilində bir neçə mesaj mətnini nəzərdən keçirdik. İngilis dili müəlliminin yazdığı mesajda oxuyuruq:

Günay: *Slm.* Necəsən? *Dün* məsələni eşitdin? Gülməkdən ürəyin getdi?

Əzizə: *Lol*☺☺☺ (ezizemahir@yahoo.com)

İki rəfiqənin bir-birilə olan səmimi yazışmasını görürük. Hər ikisi ingilis dilini bilir və qısaldılaraq yazılan mesaj formalarından xəbərdardır. Odur ki, Əzizə adlı şəxsin /lol/ qısaltmasını və ondan sonra üç dəfə gülmək emojisini yazmaqda məqsədi həqiqətən, çox güldüyünün göstəricisidir.

Hesab olunur ki, bir-birini tanıyan insanların elektron poçt mesajları rəsmi mesajlardan fərqlənir. Bir-birini tanıyan insanların yazışmaları daha sadə, yığcam olur. Mesajı cavablayan şəxs qəbul etdiyi mesajı qarşılıqlı üzbəüz münasibətin ikinci hissəsi kimi qəbul edir və bu zaman salamlaşma münasib hesab edilmir. Azərbaycanlı gəncin elektron poçtundakı bir mətni nəzərdən keçirək:

Gələn mesaj: – Nahida, will 10:00 OK for the meeting? (Nahidə, görüş üçün saat 10:00 münasibdirmi?)

Cavab mesajı: – Fine. (Əla)

Bizim düşüncəmizə görə, aşağıdakı tərkibdə olan cavablar münasib hesab edilə bilməz:

Cavab mesajı: – Nahida, fine. (Nahidə, əla)

Yaxud:

Cavab mesajı: – Dear Nahida, fine. (Əziz Nahidə, əla) (arzueliyeva@yahoo.com).

Bu cür cavablar iki bir-birini tanıyan insanlar arasında münasib olmayan üslub yaradır və biz tanıdığımız insanlarla heç də belə yazışmırıq.

Dissertasiyanın **III fəsli "Virtual kimliyin media diskursunda struktur və semantik xüsusiyyətləri"** adlanır. Ünsiyyətin, o cümlədən virtual ünsiyyətin baş verməsi üçün məlumat olmalıdır. Virtual ünsiyyətin reallaşması dil vasitəsilə yazılı və şifahi formada həyata keçirilir. İstənilən dil vahidləri – cümlə, mətn, diskurs (yazılı və şifahi), dil vahidi olmayan vasitələr, məsələn, qrafemlər, qrafem birləşmələr, prosodik vasitələr, məsələn, heca vurğusu, intonosiya, fasilə və s. virtual informasiya daşıyıcısı hesab oluna bilər. Virtual ünsiyyət iştirakçıları kommunikasiya prosesində ünsiyyətin ikitərəfli olması üçün mütləq bu vasitələrdən birindən istifadə etməlidir[31]. Baş verən ünsiyyətdə məna və məzmuna diqqət verməmək lazımdır. Söz kiçik məna daşıyan vahid hesab olunur. Virtual ünsiyyət zamanı tək bir söz, tək bir işarə belə fikir yarada bilər.[32] Məsələn, telefon vasitəsilə reallaşan dialoqu izləyək.

A: Səni çox sevirəm? Bəs sən?

B: . Birinci *əl işarəsi* /Mən də səni sevirəm// və *iki ürəyin birləşməsi* emojisi "bizim sevgimiz qarşılıqlıdır" mənasını verir. Ünsiyyəti ötürənin məqsədi tamamilə aydındır. Bu cür informasiya mübadiləsində əsas məqsəd informasiyanın hansı məqsədlə ötürülməsi şəklidir. Yeni media diskursunun müxəlif növlərində bu cür simvolların, emojilərin, emosiya bildirən işarələrin işlədilməsi tam fikir yarada bilir. Sadəcə istifadə olunan işarələrin

---

[31] Catalina, B. The Semiotics of Visual Languages. / B.Catalina. – New York: Columbia University Press, – 2002. – p. 155.

[32] Saint-Martin, F. Semiotics of Visual Language./ F.Saint-Martin. – Bloomington: Indiana University Press, – 1991. – p.55.

sayının artırılması ilə mənanı və məzmunu daha da dolğunlaşdırmaq olar.

D.Kristal yazır ki, virtual kimliyin yeni media diskursunda eksplisit vasitələr ilə ifadəsi zamanı mesaj mətnlərinin üslublarının fərqləndirilməsinə yaş və mövzu ilə, yaxud kontekstlə tanışlıq mühüm rol oynayır.[33] Xüsusilə elektron poçt mesaj mətnlərində müraciət edənin yaşından və müraciət etdiyi şəxslə yaxınlığından asılı olaraq fərqli müraciət formaları müşahidə oluna bilər. Məsələn, yaşından asılı olaraq hər hansı bir professora "Revered Professor" (Hörmətli Professor) deyə müraciət edə bilərik. Çox hallarda gənclərin mesaj mətnlərində işlətdikləri emosiya işarələri nisbətən yaşlı insanlar tərəfindən istehza ilə qarşılanır və bunlar adətən "uşaqcasına" olan şeylər hesab edilir.[34]

Amerikalı gənclərin yazdıqları mesajlarda abbreviaturların istənilən növlərindən istifadə olunur, təxminən 20 faiz mesaj yazılarında bu belədir. Norveçlilərin mesaj mətnlərində isə bu faiz daha aşağıdır, təxminən mesaj mətnlərinin altı faizində abbreviaturlardan istifadə olunur.[35] */X* və *!/* simvollarından başqa simvolların işlədilməsinə isə, demək olar ki, rast gəlinmir. Virtual kimliyin yeni media diskursunda eksplisit ifadəsi zamanı emosiya işarələrinin işlədilməsi isə qeyri-adi kimi qəbul edilir.[36] Azərbaycanlıların (ingilis dilini yaxşı bilən azərbaycanlıların) mesaj mətnlərində ingilis dilində aşağıdakı qısaltmaları da işlətdiklərini müşahidə edirik: */u/* "sən" (you), */brb/* "təcili geri qayıdın" (be right back) və */gr8/* "böyük" (great) (salimaliyev@_gmail.com; anarmusayev@yahoo.com).

Virtual kimliyin yeni media diskursunda eksplisit ifadəsi media publisistikasında geniş müşahidə edilir. İctimayəti cəlb edən

---

[33] Crystal, D. Language and the Internet. 2nd edition. / D.Crystal. – Cambridge: Cambridge University Press, – 2006. – p.156.

[34] Danesi, M. The Semiotics of Emoji. / M.Danesi. – London: Bloomsbury Academic Publishing Plc., – 2017. – p.22.

[35] Ylve, Hard af Segerstad. Use and adaptations of written language to the conditions of computer-mediated communication: /PhD Dept of Linguistics / – Göteborg: Göteborg University Press, 2002. – p. 20.

[36] Ling, R. Mobile Communications: Renegotiation of the Social Sphere. / R.Ling, P.Pederson (eds.). – London: Springer, – 2005. – p.335.

üsullardan biri yazılan emosiya işarələrinin və simvolların lüğətlərdə, yaxud məcmuələrdə toplanmasıdır. Burada məqsəd işarələrin və simvolların insanlar üçün anlaşıqlı olunmasına və "yeni və aydın dillə" insanların tanış olmasına şərait yaratmaqdır. İ.Andinin "Cyberspeak" onlayn lüğətini buna misal verə bilərik.[37] Bundan əlavə, 1990-cı illərdə Birləşmiş Krallığın telekommunikasiyası tərəfindən hazırlanmış "The Byte-Sized Guide to E:mail" bukletini də nümunə göstərə bilərik.[38] Bəzən elə halla qarşılaşmaq olur ki, yazılan mesaj mətnlərinin oxunması həmin sözlərin qısaldılmasını bilməyənlər üçün çətinlik törədir. Məsələn, İngiltərədəki məktəblərin birində işlədilən qısaltmaların, işarələrin və simvoların mənasını bilməyən müəllim yazılan mətni anlamamışdır.[39]

Virtual kimliyin implisit ifadəsi çox inisiallarda müşahidə edilir.[40] Bir çox inisiallar var ki, onlar ancaq xüsusi kontekstlərdə işlədilə bilər. Məsələn, */VGG/* "qədim yazılarda rast gəlinən - çox yaxşı şərt" (very good condition), */LBW/* "kriket oyunlarında – bıçaqdan əvvəl" (leg before wicket), */ERA/* "beyzbol oyunlarında – orta hesabla qaçışdan əvvəl qazanılan" (earned run average), "*C/O*" "poçt bağlamalarında – diqqətli olun/diqqətli qoruyun" (care of), "*H&C"* "yaşayış məskənlərində – soyuq və isti" (hot and cold), */APR/* "illik faiz dərəcəsi" (annual percentage rate), */NNE/* "coğrafiyada – şimal-şimal-şərq 'north-north-east') və s.[41] N.Elizabet "Yeni sözlərin Oksford lüğəti"ndə yazır ki, implisit formalı inisialların bir qisminin qısaltma belə olduğu unudulub, onları nəinki mesaj mətnlərində, həmçinin gündəlik yazışmalarında da işlədirlər. Məsələn, */CD/* (Compact Disc), */DVD/* (Digital Versatile Disc),

---

[37] Andy, I. Cyberspeak: An Online Dictionary. / I.Andy. – New York: Random House, – 1997. – p.18.

[38] www.byte-sized guide.com

[39] Arnheim, R. Visual Thinking. / R.Arnheim. – Berkerley: University of California Press, – 1969. – p.25.

[40] Michele, H.J. Assessing the structure of communication on the World Wide Web. // – England: Walter de Gruyter, Journal of Computer-Mediated Communication, – 1997. No 3 (1), – p. 10.

[41] Elizabeth, K. The Oxford dictionary of new words. / K.Elizabeth. – Oxford: Oxford University Press, – 1997. – p.256.

*/AIDS/* (acquired immune deficiency syndrome), *laser* (light amplification) və s.[42]

L.Stiv və C.L.Giles yazırlar ki, bir qisim implisit vasitələri oyunda əks etdirən inisiallar da vardır.[43] Məsələn, */t'ing/* "danışma/söhbət" (talking). Bu oyun zaman insanlar inisiallarla danışmaqla bir-birlərini ötüb keçməyə çalışır.

44 gün davam edən İkinci Vətən Müharibəsi (27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu ərazidə yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatına başlaması barədə qərar verilib . Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və İkinci Qarabağ müharibəsinə çevrilmişdir. Qarşıdurmalar 27 sentyabr 2020-ci il səhər saatlarında Birinci Qarabağ müharibəsindən sonra yaradılmış təmas xətti boyunca başladı. Bunun ardınca Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik , Azərbaycanda isə hərbi vəziyyət , komendant saatı və qismən səfərbərlik elan edildi. Otuz il davam edən işğala, ədalətsizliyə 44 gündə son qoyuldu. İkinci Qarabağ müharibəsi yalnız cəbhədə aparılmadı. Hər bir Azərbaycan vətəndaşı arxa cəbhədə müharibə üçün əlindən gələnin daha artığını etdi. Müharibə müddətində onlar cəmiyyətin intellektual əsgərləri rolunda çıxış edərək ön cəbhəyə dəstək olmuşlar.) zamanı virtual ünsiyyət ön planda oldu . İnternet ünsiyyəti artıq kütləvi informasiya vasitələrini aktivliyi, səmərəliliyi ilə arxada qoymuşdu . Azərbaycan vətəndaşları bu müharibə zamanı sosial şəbəkələrdən geniş istifadə etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciətini öz net hesablarından, xüsusilə də rəsmi tvitter səhifəsindən çatdırırdı. Əsasən də işğaldan azad olunmuş torpaqlar haqqında məlumat , ön

[42] Yenə orada, s. 257.

[43] Steve, L. and Giles C.Lee. Accessibility of information on the Web. // – New York: Harcourt, – 1999. Nature 400 (6740), – p.108.

cəbhədə baş verənlər prezidentin tvitter hesabından aktiv şəkildə xalqa bildirilirdi . Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin sabiq rəhbəri Hikmət Hacıyev də sosial şəbəkənin fəal istifadəçilərindən biri olaraq , xalqa cəbhə ilə bağlı lazımi məlumatı öz tvitter hesabından paylaşırdı . Ali Baş Komandanın tvitter hesabından oxuyuruq: "*The war is over. Nagorno Karabakh conflict already belongs to history. We have accomplished our historical mission . New opportunities have emerged today. Transportation options are among the primary opportunities.*" (Azərbaycan dilində tərcüməsi: *Müharibə başa çatdı. Dağlıq Qarabağ münaqişəsi artıq tarixə məxsusdur. Biz öz tarixi missiyamızı yerinə yetirdik . Bu gün yeni imkanlar meydana çıxıb . Nəqliyyat imkanları əsas imkanlar arasındadır.*)

İndi isə Hikmət Hacıyevin tvitter hesabından oxuduğumuz məlumatı təqdim edək: "*Panoramic view of completely destroyed Jabrayil city of Azerbaijan. Graves were vandalized and even bones were taken out during 30 years of occupation? How Armenia dares to speak about civilization or cultural values after such barbaric behavior?*" (Azərbaycan dilində tərcüməsi: *Azərbaycanın Cəbrayıl şəhərinin tam dağıdılmış panoramik mənzərəsi. 30 illik işğalı zamanı qəbirlər vandalizmə məruz qalıb və hətta sümüklər çıxarıldı? Bu cür barbar davranışdan sonra Ermənistan necə sivilizasiya və ya mədəni dəyərlər barədə danışmağa cürət edir?*)

Virtual kimlik və onun yeni media diskursunda ifadəsi ilə bağlı mənbələrin araşdırılmasına həsr edilmiş bu tədqiqat işini yerinə yetirərkən xeyli sayda elmi-nəzəri ədəbiyyat və alimlərin fikir və baxışları nəzərdən keçirilmiş və aşağıdakı **nəticələr** əldə edilmişdir.

1. İnternet dilçiliyi ilə bağlı xeyli linqvistik mənbələr araşdırılmışdır. "İnternet dilçiliyi" termininin işlədilməsi ilə bağlı gəldiyimiz qənaət budur ki, termin dil və internetin birliyi ilə bağlı olan bütün məsələləri əhatə etmək imkanına malikdir. 1990-cı ildə "kompüter-vasitəçiliyi" ilə ünsiyyət yaranır və sürətlə inkişaf edir. Dilin və ünsiyyətin birgə fəaliyyətinin müşahidə olunduğu dil və ünsiyyət birliyi internet dilçiliyində tədqiq edilə bilər.

2. İnternet dilçiliyi dil və şəbəkə ilə bağlı olan bütün vasitələrin hamısını özündə ehtiva edə bilir. İnternet dilçiliyi dilin internetdə öyrənilməsi, yaxud internet dilinin öyrənilməsidir. Bu dilçilik hələ körpə mərhələsindədir və sürətlə inkişaf edir. İnternet sintaksisi, internet morfologiyası, fonologiyası, qrafalogiyası, multimediası, semiotikası, semantikası, diskursu və s. öyrənməlidir. İnternet dili, internet ünsiyyəti və onun insanlara təsiri arasında bir balans yaradır. İnternetin özünəməxsus ünsiyyət dili var: *mesaj dili, tvitter dili, e-poçtların dili, feysbook ünsiyyət dili, emojilərin dili* və s. Bu vasitələrin hər birinin öz yazı və işlədilmə formaları var. Onlar artıq bizim həyatımızın bir hissəsinə çevrilib və biz onlardan kənar dura bilmərik.

Bu gün internet dilçiliyinin əsas vəzifələrini aşağıdakı kimi müəyyənləşdirmək olar:

a) təkcə ingilis dilində deyil, digər dillərin də bazası əsasında çatlarda, forumlarda, xidmət sahələrində toplanmış geniş mətn kütlələrinin seçilməsi və təhlil meyarlarınının işlənib hazırlanması;

b) internet dilçiliyinin ikinci vəzifəsi anonimlikdir. Motivasiya və dilin işlədilməsinin şərtiliyi ilə bağlı okkazional amillərin sistemləşdirilməsinin və izahının olduqca mürəkkəbliyi qeyd olunmalıdır. Təhlildə yaş həddi, cins, sosial və etnik mənsubiyyət nəzərə alınmalıdır. Tam anonimlik şəraitində istifadəçilərin şəbəkədə yerləşdirdikləri informasiyaya əsaslanılmalıdır;

c) dilin elektron mühitdə fəaliyyətinin öyrənilməsində yalnız dilin yeni imkanları deyil, həm də retrospektiv təhlil etmək, dilin yazılı və şifahi formalarından alınan biliklər şərh edilməlidir;

d) internet dilinin aspektlər üzrə öyrənilməsində aşağıdakı bəndləri ayırmaq lazımdır: internet dilçiliyində metaforların xüsusiyyətləri, internet dilçiliyinin leksikoloji xüsusiyyətləri, internetdə ünsiyyət dilləri, jarqonlar və slənqlərin müxtəlif növləri, internetdə ünsiyyətin fonetik və fonoloji xüsusiyyətləri, internetdə ünsiyyətin semiotik səciyyəsi, internet-media və internet ədəbiyyatının dili, internet diskursun sözdüzəltmə xüsusiyyətləri, internet leksikoqrafiyası, mədəniyyətlərarası internet kommunikasiyası və s.

3. İnternet media diskursları arasında yayılmış ən müasir kütləvi informasiya vasitəsi hesab edilir. Bu vasitə sürətlə digər kütləvi informasiya vasitələrini sıxışdırıb çıxardır. Yeni media diskursunun semantik, praqmatik cəhətdən öyrənilməsinin linqvistik əhəmiyyəti internet mətnlərinin mənalarının açılmasında və onların fərqli ünsiyyət növlərinin formalaşmasında müşahidə edilir. İnternet dilinin geniş şəkildə işlədilməsi fərqli internet mətnlərində, məsələn elektron poçt, tvitter, blogging və s.-lərdə daha aydın nəzərə çarpır.

4. Yeni media diskursu rəqəmsal dünyada ünsiyyətin növlərindən biri kimi müəyyən edilir və qrup korrelyasiyası, publisistika, fərdi orientasiya, kütləvi orientasiya onun komponentləridir. Fərqli dillərdə mesaj mətnlərinin, e-poçtların, emojilərin özlərinə məxsus ünsiyyət dilləri vardır. Müasir mesaj mətnləri yığcam, abbreviaturlarla, inisiallarla zəngin, emojilərin müşahidə edildiyi bir mətn formasıdır. E-poçtların da öz dilləri vardır. E-poçtlar şəbəkə tərəfindən hazır şəkildə müəyyən edilmiş proqramlara uyğun yazılmalıdır. Mesajın əsas mətn hissəsi isə fərdin istəyindən asılı olaraq yazılır və göndərilir. E-poçt mətnlərində də yığcamlıq, abbreviaturlar, emojilərin işlədilməsi üstünlük qazanmışdır. Hazırda emojilər, yaxud "gülməli kiçik simvollar", "fərqli üz ifadələri əks olunan işarələr" geniş kütləyə hakimdir. Elə bu səbəbdən də 17 iyul "Dünya Emoji günü" kimi qeyd olunur. Emojilərin üç fatik funksiyası fərqləndirilir: a) söhbəti (danışığı) açan; b) söhbəti (danışığı) sonlandıran; c) səssizliyi pozan. Emojilər yazılı ünsiyyətdə qrafik durğu işarələri ilə əvəz oluna bilər və emojilər vizual olaraq hər hansı bir ifadəni vurğulaya bilir.

5. İnternet çoxlaylı semiotik sistemdir, buradakı dil həmin laylardan biridir. Hazırda vahid metodologiya və terminlər sisteminin işlənib hazırlanmasında yeni elm sahəsi olan internetologiya təşəkkül tapmışdır. İnternet dilçiliyini təbii insan dilinin qlobal internet məkanında fəaliyyətinin xüsusiyyətlərini, elektron mühitdə təbii dildə kommunikasiyanın gedişində virtual dil şəxsiyyətinin linqvistik davranışının öyrənilməsilə məşğul olan yeni dilçilik sahəsi kimi müəyyənləşdirilmişdir.

6. Fərqli dillərdə virtual kimliyin implisit ifadəsi mümkündür. Müxtəlif dillərdə virtual kimliyi göstərmək üçün yazılan mətnlərin

bir neçə fərqli yolları müəyyən edilmişdir. Bu yollardan çoxu internet əlaqələrində müşahidə olunur. Piktoqramlar və loqoqramlar fərqli dillərdə virtual kimliyi göstərməyin implisit vasitələrindən hesab edilir. Müşahidə olunur ki, inisiallar mesaj mətnlərində ikinci istifadə edilən vasitədir. Mesaj mətnlərində hərflərin buraxılması da inisiallarla eyni dərəcədə əlverişlidir.

7. Virtual kimliyin yeni media diskursunda eksplisit ifadəsi söz, cümlə, söyləm, mətn, diskurs kimi dil vahidlərində müşahidə edilir. Virtual kimliyin yeni media diskursunda implisit ifadəsi isə qısaldılaraq yazılan mesaj mətnlərində abbreviaturlar, qısaltmalar, inisiallar, emojilər, fərqli üz ifadələri vasitəsilə işlədilir.

**Dissertasiyanın əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**


1. Virtual kimlik və diskurs // – Bakı, Elmi xəbərlər, Azərbaycan Dillər Universiteti, – 2015. – s.187-193.
2. Yeni Media Diskursu // – Bakı, Gənc Tədqiqatçıların IV Beynəlxalq Elmi Konfransı, Qafqaz universiteti. – 2016. – s.1288-1290.
3. Kiber məkanda kimlik və kommunikasiya // – Bakı, "Xarici dillərin tədrisinin aktual problemləri" respublika elmi-praktiki konfransı. – 2016. – s.310-312.
4. Yeni media diskursunun linqvistik xüsusiyyətləri // – Bakı, Koqnitiv və tətbiqi dilçiliyin aktual problemləri adlı beynəlxalq elmi konfransı. – 2016. – s.59-61.
5. İnternet dilçiliyi konsepsiyası haqqında // – Bakı, "Şərqşünaslığın aktual problemləri" mövzusunda respublika elmi konfransı, Bakı Dövlət Universiteti. – 2017. – s. 52-54.
6. Investigation of media discourse // – United Kingdom, Advances in Social Sciences Research Journal, – 2017. – Vol.4. №20, – p.100-106.
7. İnternet dili yeni ünsiyyət vasitəsi kimi // – Bakı, AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2017. №16, – s. 159-167.
8. "Yeni media diskursu" nədir? // – Bakı, Bakı Qızlar Universitetinin Elmi Əsərləri, – 2017. №4 (32), – s. 26-31.

9. Emojilər yeni ünsiyyət vasitəsi kimi // – Bakı, Tətbiqi dilçiliyin müasir problemləri, Azərbaycan Dillər Universiteti, III Beynəlxalq elmi konfransı. – 2018. – s.84-85.
10.Fərqli dillərdə mesaj mətnlərinin ünsiyyət dili // – Bakı, AMEA, Terminologiya məsələləri, – 2018. №1, – s.117-129.
11. Fərqli dillərdə virtual kimliyin implisit dil vasitələrilə ifadəsi // – Bakı Slavyan Universiteti, Humanitar Elmlərin öyrənilməsinin Aktual problemləri, – 2018. №1, – s.17-22.
12. New Media Communication // – Canada: Journal of Applied Linguistic and Language research, – 2018. Vol.3, №4, - p.13-19.
13. Fərqli dillərdə mesaj mətlərinin ünsiyyət dili // – Bakı, Azərbaycan Respublikası Nazirlər kabineti yanında terminologiya komissiyası. Terminologiya məsələləri jurnalı, – 2018. №1, - s.117-128.
14. Virtual dünyada ünsiyyət // – Bakı, AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2018. №10, – s.133-137.
15. Simvol mətn dilinin praqmatik tərəfləri // - Bakı, Azərbaycan Dillər Universiteti, Dil və ədəbiyyat jurnalı, – 2018. №3-4, s.55-59.
16. Peculiarities of internet text // – Пенза, Advanced sciences, International scientific conference, “ Наука и просвещение”. – 2019. – s.124-126.
17.İnternet tərcümə sistemləri // –Bakı, Tərcümə problemləri, Azərbaycan Dillər Universiteti, Respublika elmi-praktiki konfransı. – 2019. – s.64-66.
18. İnternet danışıq dilinin variativliyi // – Bakı, Azərbaycanda Xarici Dillər jurnalı, – 2019. №1 (42), s.134-137.
19. Emosiya ifadə edən mətlərin praqmatikası // – Bakı, AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya Məsələləri, – 2019. №2, s.211-216.
20. Virtual dünyada nitq və yazı arasındakı əsas fərqlər // – Bakı, AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya Məsələləri, – 2019. №11, s.154-159.
21. Virtual Identity in the media discourse // – Украина, Вестник Университета имени Альфреда Нобеля. Серия Филологические науки”, –2021. № 1 (21), с.198-206.

22. Virtual Dilçiliyin İkinci Vətən (Qarabağ) müharibəsində rolu // Bakı Slavyan Universiteti, Humanitar Elmlərin öyrənilməsinin Aktual problemləri, – 2021. № 2, s.30-34.
23. The Importance of the Email Language in The Media Discourse // – Sweden, Umea, Scientific Trends and Trends in the Context of Globalisation, – 2021. №93, p.230-235.
24. Müasir dövrdə internet yazı sistemi // The XXVIII International Scientific Symposium "Karabakh is My Native Land", Amsterdam/Holland, – 2022. №03, p.79-81
25. Some Linguistic Features of İnternet texts // United Kingdom, International Journal of Social Science and Human Research, – 2023. №03, p.6473-6475.
26. Media və Diskurs // Bakı, İpək yolu jurnalı, – 2024. №2

Dissertasiyanın müdafiəsi 17 Sentyabr 2024-cü il tarixində saat 13:00-da Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Az 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 05 İyun 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 21.05.2024

Kağızın formatı: 60x84 16\[1]

Həcm: 38920 işarə

Tiraj: 100 nüsxə